AZƏRBAYCAN RESPUBLİKASININ

SƏHİYYƏ NAZİRİ

Ə M R

№ 50

Bakı şəhəri «28» aprel 2009 il

**«Vətəndaşların müraciətlərinə baxılmasına nəzarətin gücləndirilməsi barədə»**

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə vətəndaş müraciətlərilə bağlı daxil olan məktub və korrespondensiyaların qanunvericiliklə müəyyən olunmuş qaydada baxılmasına nəzarətin gücləndirilməsi və bu işin yaxşılaşdırılması məqsədi ilə

**ƏMR EDİRƏM:**

1.Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın:

1.1.vətəndaşların müraciətlərinə baxılması işinin gücləndirilməsi məqsədilə bu sahədə qüvvədə olan normativ sənədlər çərçivəsində tədbirlər həyata keçirilsin və bu iş şəxsi nəzarətə götürülsün;

1.2. vətəndaşların müraciətlərinə baxılması məsələləri tibbi şuralarda, ümumi iclaslarda geniş təhlil və müzakirə olunsun, bu işdə səhlənkarlığa yol vermiş şəxslər barəsində qanuna müvafiq ciddi tədbirlər görülsün;

1.3. vətəndaşların müraciətlərinə, xüsusən şikayət, təkrar və kollektiv müraciətlərin baxılmasına nəzarət gücləndirilsin, onların yaranma səbəbləri və həlli istiqamətində tədbirlər həyata keçirilsin;

1.4. vətəndaşların qəbulu məsələlərinin nizamlanması üçün tədbirlər görülsün;

1.5. tibb müəssisələrində kargüzarlığın elektron variantının genişləndirilməsi məqsədilə tədbirlər görülsün, elektron-poçt ünvanlarının daim fəaliyyət göstərilməsi təmin edilsin;

1.6. görülmüş işlər barədə ildə iki dəfə - I yarımillik üçün iyulun 25-dək, II yarımillik üçün dekabr ayının 25-dək Səhiyyə Nazirliyinə məlumat təqdim edilsin.

2. Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**